# Təhlükəsizlik Sektoru İslahatı

## Yaxşı idarəçilik prinsiplərinin təhlükəsizlik sektoru islahatına tətbiq edilməsi

### Bu buraxılışla bağlı

**TSİ-ı Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi(TSİd) və təhlükəsizlik sektoru islahatı(TSİ) üzrə mövzulara qısa girişlər verir. Bu cür buraxılışlar indiki dövrdə gedən debatları ümumiləşdirir, əsas terminləri izah edir və geniş təcrübəyə əsaslanaraq əsas gərginlik doğuran məsələləri üzə çıxarır. TSİ Köməkçi materialları yaxşı idarəçilik və ya islahat üçün spesifik modelləri,siyasi proqramları və ya təklifləri təbliğ etmir,əksinə hər bir bu cür mövzular üzrə oxucuların biliklərinin artması üçün, onları əlavə vəsaitlərlə təmin edir. TSİ Köməkçi materialları yaxşı təhlükəsizlik sektoru idarəçiliyi (TSİd) və Təhlükəsizlik sektoru islahatı (TSİ) üzrə mövcud yanaşmaları anlamaq və tənqidi qiymətləndirmə aparmaq istəyən təhlükəsizlik sektoru idarəçiliyi və islahatı üzrə çalışan maraqlı tərəflər üçün nəzərdə tutulan vəsaitdir.**

DCAF Geneva Centre for Security Sector Governance

## TSİ-ı Köməkçi materialları ilə bağlı

Bu TSİ-ı Köməkçi materialları təhlükəsizlik sektoru islahatı barəsindədir. TSİ-ı siyasi və texniki proses olub,yaxşı idarəçilik prinsiplərini tətbiq edərək dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır. TSİ –ı, təhlükəsizliyin təmin edilməsi, idarəetməsi və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etmək deməkdir. 1990-cı illərin sonundan başlayaraq bir çox ölkələr ölkədaxili TSİ-ı proseslərini başlatdılar və TSİ-ı təhlükəsizlik,inkişaf, demokratiya və sülh quruculuğu sahəsində beynəlxalq yardımların sütununa çevrildi.

## Bu TSİ Köməkçi materialları aşağıdakı suallara cavab verir:


- ► Təhlükəsizlik sektoru islahatı nə deməkdir? Səh2
- ► Nəyə görə təhlükəsizlik sektoru islah edilməlidir? ........ Səh4
- ► TSİ-nın başqa təhlükəsizlik islahatlarından fərqi nədir? ........ Səh6
- ► Hansı cür vəziyyətlər TSİ-ı labüd edir? ........ Səh7
- ► Ad hansı fərqliliyi gətirir? ........ Səh9
- ► TSİ-ı necə meydana gəlmişdir? ........ Səh10


## Təhlükəsizlik sektoru islahatı nə deməkdir?

**TSİ-ı siyasi və texniki proses olub təhlükəsizliyin təmin edilməsi, idarəetməsi və onun üzərində nəzarəti mülki demokratik nəzarət,qanun aliliyi və insan hüquqları çərçivəsində daha da effektiv və daha da hesabatlı etməklə dövlətin və əhalinin təhlükəsizliyini yaxşılaşdırmaqdır.** TSİ-nın məqsədi, yaxşı idarəçilik prinsiplərini təhlükəsizlik sektoruna tətbiq etməkdir.

**TSİ-ı,** təhlükəsizliyin təmin edilməsi,idarəetməsi və onun üzərində nəzarətin təmin edilməsinə cəlb olunan bütün dövlət və qeyri-dövlət aktyorları **haqqındadır və onların rolları,məsuliyyətləri və fəaliyyətləri arasında əlaqələrin olduğunu vurğulayır.** TSİ, həm də ədalətin təmin edilməsi,idarəetməsi və onun üzərində nəzarətin təmin olunması məsələlərini də əhatə edir,çünki təhlükəsizlik və ədalət bir-biri ilə sıx bağlıdır.

**TSİ-a təhlükəsizliyin bütün siyasi və texniki tərəflərini əhatə edən çox sayda fərqli islahat fəaliyyətləri də daxildir,**o cümlədən, qanunvericilik təşəbbüsləri,siyasi təşəbbüslər,məlumatlandırma və ictimaiyyəti məlumatlandırma; idarəetmə və inzibati bacarıqların qurulması,infrastrukturun inkişafı və yaxşılaşdırılmış təlim və avadanlıq daxildir..

TSİ –ı proqramlaşdırması aşağıdakılara fokuslana bilər:

- *Bütöv sistemin necə işlədiyinə təsir edən proseslərə*-məsələn,milli təhlükəsizlik qərarları,gendər məsələləri,qanunvericilik islahatları;
- *Təhlükəsizlik sektoru daxilində xüsusi sahələrə* və ya idarəetmə səviyyəsinə-məsələn, ölkə səviyyəsində, ölkə daxilində, bələdiyyə,bölgə,şəhər və ya kənd yeri təhlükəsizlik təminatına, və s
- *Təhlükəsizlik siyasətinin və ya təminatının bir sahəsinə*-məsələn,hərbi islahat, cinayət hüququnun islahatı,kəşfiyyat islahatına və s.
- *Təhlükəsizlik sektoru daxilində hər hansı bir təsisatın roluna*-məsələn, polis,ombudsman,parlament komitəsinə, və s.

TSİ-a həm də təhlükəsizlik və ədalət sisteminin hər bir səviyyəsinə cəlb olunan çox sayda dövlət və qeyri-dövlət aktyorları da daxildir, hökümətin qərar verən strateji siyasi səviyyəsindən tutmuş spesifik təşkilatların daxili iş prosesi daxil, təhlükəsizliyin təmin edilməsinin gündəlik işinə qədər məsələləri əhatə edə bilər. Bütün səviyyələrdə,TSİ-nın məqsədləri təhlükəsizlik təminatını, idarəetməsini və sektor üzərindəki nəzarəti yaxşı təhlükəsizlik sektoru idarəçiliyi prinsipləri ilə bir sıraya qoymaqdır. 1-ci Şəkildə TSİ-nın adətən əhatə etdiyi çox sayda fəaliyyətlər əks olunur. **Bütün bu** cür **rəngarəng fəaliyyətlər ona görə TSİ-nın tərkib hissəsi sayılır ki, onların hamısı həm hesabatlılıq və həm də effektivlik baxımından təhlükəsizlik təminatına, idarəetməsinə** və nəzarətinə **töhvə verirlər.**

**TSİ proqramlaşdırması bütün şəraitlərdə fərqlidir,çünki hər bir şəraitdə islahat üçün zəruri olan təhlükəsizlik sektoru,təhlükəsizlik mühiti və siyasi,sosial və iqtisadi stimul fərqlidir.** Buna görə də, ən yaxşı praktikalar TSİ-nın planlaşdırma, dizayn, planların yerinə yetirilməsi və nəticələrin qiymətləndirilməsi mərhələləri zamanı islahat mühitinin dəqiq analizini tələb edir. TSİ planlaşdırması və siyasi istiqamətlər üzrə daha geniş məlumat almaq üçün bu TSİ-ı Köməkçi materiallarının sonundakı əlavə vəsaitlər siyahısına baxın.

## Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi(T-Sİd)

Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi, dövlət və qeyri dövlət subyektlərinin yaxşı idarəçilik prinsiplərini təhlükəsizliyin təmin edilməsi, idarəetməsi və onun üzərində nəzarət aparılması baxımından necə tətbiq edildiyini göstərir. Yaxşı idarəçilik prinsipləri dedikdə hesabatlılıq,şəffaflıq,qanun aliliyi, iştirakçılıq, cavablılıq, effektivlik başa düşülür.Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi o deməkdir ki,təhlükəsizlik sektoru dövlət və insan təhlükəsizliyini effektiv və məsuliyyətli şəkildə mülki demokratik nəzarət çərçivəsində,qanun aliliyi və insan hüquqlarına hörmət çərçivəsində təmin edir.Yaxşı TSİd-ı hüquqi standardlara əsaslanan xüsusi növ təhlükəsizlik idarəçiliyi olub, dövlət təhlükəsizlik sektorunun demokratik ölkədə necə işlədiyini göstərir.

Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə daha geniş məlumat almaq üçün, "Təhlükəsizlik Sektoru İdarəçiliyi" və "Gendər Bərabərliyi və Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi" üzrə TSİ Köməkçi materiallarına isnad edin.

### Şəkil 1 TSİ-nın cəlb oluna biləcəyi geniş sayda fəaliyyətlərin bir sıra nümunələri

| **Hesabatlılıq və Effektivlilik** | |
|---|---|
| **Strateji-səviyyəli TSİ fəaliyyətləri**<br>Hüquqi,siyasi və siyasət çərçivələrinin təmin edilməsi təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi əks etdirir. | |
| • Təhlükəsizlik sektorunda mülki aliliyin,demokratik nəzarətin və siyasi neytrallığın təmin edilməsi üçün hüquqi bazanın gücləndirilməsi;<br>• Həm dövlət və həm də qeyri-dövlət təhlükəsizlik təminatçıları üçün,o cümlədən,daxili və kənar təhlükəsizlik missiyalarının bir-birindən ayrılması,şəffaf milli təhlükəsizlik siyasətinin qurulması və dövlət,özəl və kommersiya məqsədli təhlükəsizlik təminatçıları üzərində rəsmi nəzarətin aparılması üçün qanunverici sənədlərin yaxşılaşdırılması | • Görülən işlərin parlament,müstəqil və məhkəmə nəzarət mexanizmləri vasitəsilə audit edilməsi;<br>• Nəzarət təsisatlarının siyasi və maliyyə müstəqilliyinin təmin edilməsi və onların gücləndirilməsi;<br>• Yaxşı TSİd-i ətrafında ictimai məlumatlandırma aparılması və ictimaiyyətin cəlb olunması üçün onlara imkanların yaradılması və bacarıqların yaxşılaşdırılması və mülki cəmiyyət və media vasitəsilə idarəçiliyin diqqətdə saxlanılması;<br>• İdarələrarası,regional və beynəlxalq təhlükəsizlik əməkdaşlığı üçün hüquqi bazaların yaxşılaşdırılması. |
| **Təşkilati səviyyəli TSİ fəaliyyətləri**<br>Təhlükəsizlik sektoru təsisatlarının daha da effektli və daha da hesabatlı edilməsi | |
| • Xidmətin təmin edilməsi üzərində nəzarət və idarəetmənin yaxşılaşdırılması üçün təşkilati strukturun dəyişdirilməsi;<br>• Təhlükəsizlik sektoru təsisatları daxilində daxili nəzarət və rəhbərliyin aparılması üçün sistemlərin yaxşılaşdırılması, o cümlədən, daxili təlimatlar,davranış kodeksləri,şikayət prosesləri və intizam standardları da bura aiddir.<br>• Qaydalar,təlimatlar və qərar-qəbul etmə proseslərində şəffaflığın təmin edilməsi. | • Bərabər imkanların və bütün təşkilatı səviyyələrdə təmsilçiliyin stimullaşdırılması;<br>• Təhlükəsizliyin təmin edilməsi fəaliyyətlərinin dövlət və özəl təhlükəsizlik təminatçıları tərəfindən yaxşılaşdırılma yolları<br>• Insan və maliyyə resurslarının peşəkar idarə etmə standardlarının yüksəldilməsi, o cümlədən, effektiv,bacarıqlı kadrların işə alınması,rütbə verilməsi və mükafatlandırılması də bura aiddir. |
| **Əməliyyat- səviyyəli TSİ fəaliyyətləri** | |
| Məsələn: | |
| • Xidmətin peşəkar standardlarının qaldırılması və xidmət üzərində nəzarət və hesabatlılığın yaxşılaşdırılması;<br>• Dövlət və qeyri-dövlət təhlükəsizlik sektoru subyektlərinin qanun aliliyi və insan hüquqlarına hörmət əsasında davranışı üçün qaydalar və prosedurların yaxşılaşdırılması;<br>• Ictimaiyyət ilə təhlükəsizlik sektoru arasında münasibətlərin,o cümlədən, ictimaiyyətin informasyaya çıxışını,xəbər vermə və şikayət mexanizmlərinin yaxşılaşdırılması | • Təhlükəsizliyin təmin edilməsində xidmətə yönəlmiş münasibət və yanaşmanın stimullaşdırılması;<br>• Təhlükəsizlik xidmətçiləri üçün uyğun təlim,təcrübə və avadanlığın təmin edilməsi;<br>• Təhlükəsizlik xidmətçiləri üçün effektiv təşkilati,inzibati və idarəetmə dəstəyinin təmin edilməsi;<br>• əhalinin bütün sektorları üçün təhlükəsizlik və ədalətə bərabər çıxışın təmin edilməsi. |

## Nəyə görə təhlükəsizlik sektoru islah edilməlidir?

**Effektiv olmayan təhlükəsizlik sektoru təhlükəsizlik təmin edə bilməz və eyni zamanda hesabatlı olmayan təhlükəsizlik sektoru həm əhaliyə və həm də dövlətə təhlükə yaradır.** Effektsiz və hesabatsız təhlükəsizlik sektorunun yaratdığı bir sıra problemləri TSİ-ı həll etməyə kömək edər.

**TSİ-ı, dövlət və əhalinin təhlükəsizliyini təmin etmək üçün təhlükəsizlik sektoru imkanlarını artırır.** Effektsiz və hesabatsız təhlükəsizlik sektoru ölkənin müdafiəsində,hüquq mühavizə və ya sosial yardım məsələlərində öz missiyalarını etibarlı şəkildə yerinə yetirə bilməz və onun özü həm dövlət və həm də əhaliyə təhlükə törədə bilər.

**TSİ-ı dövlət vəsaitlərinin təhlükəsizlik sektoru tərəfindən istifadəsini daha da məhsuldar edir**. Effektsiz təhlükəsizlik sektoru dövlət resurslarını israf etməklə dövlətin başqa xidmətlərinin vəsaitlərini xərcləyir və potensial olaraq dövləti lüzumsuz borclara salır.

**Nəzarət və peşəkarlığı yaxşılaşdırmaqla,TSİ-ı korrupsiya imkanlarını azaldır.** Effektsiz və hesabatsız təhlükəsizlik sektoru korrupsiya praktikalarını artırır və o da öz növbəsində dövlət və özəl sektor üzrə yaxşı idarəçiliyi sarsıdır və iqtisadi,sosial və siyasi inkişaf üçün mənfi nəticələrə gətirir.

Öz legitim missiyalarını effektiv şəkildə yerinə yetirmələri üçün, TSİ-ı təhlükəsizlik sektoru qulluqçularının peşəkar müstəqilliyini qoruyur. Hesabatsız təhlükəsizlik sektoru mülki siyasətçilərin müdaxiləsinə məruz qalır və onlar, təhlükəsizlik sektoru qulluqçularını ölkə və beynəlxalq qanunlara uyğun olmayan qanunsuz addımlar atmağa məcbur edir və ya öz siyasi mənafeləri üçün təhlükəsizlik qüvvələrindən istifadə edir.

**TSİ-ı peşəkar standardları artırır və hesabatlılığı gücləndirir və vətəndaşların hüquqlarının pozulmasını azaldır.** Effektsiz və hesabatsız təhlükəsizlik sektoru öz hakimiyyətindən sui-istifadə edir; çünki bu halda təhlükəsizlik sektoru qulluqçusu ya yararsızdır ya da özünün şəxsi,siyasi və ya təşkilati marağından çıxış edir.

**TSİ-ı, təhlükəsizlik sektoru daxilində hamını əhatə edən təhlükəsizlik təminatı və bərabər imkanlar təşviq edir**.Bütün etnik, sosial və fərqli dindən olan qadınların, kişilərin, uşaqların fərqli təhlükəsizlik tələblərini tanımayan təhlükəsizlik sektoru ayrımçı sayılır və bütün vətəndaşlara effektiv şəkildə təhlükəsizlik təmin edə bilməz.

**Təhlükəsizlik sektoru daxilində birlik,siyasi neytrallıq,bərabərlik və peşəkarlıq təşviq etməklə TSİ-ı münaqişələrin qarşısını alır.** Effektsiz və hesabatsız təhlükəsizlik sektoru siyasətə müdaxilə edə bilər və adətən xalqın maraqlarını kənara qoyub güclü siyasi elitanın maraqlarını müdafiə etməklə çox zaman zorakı münaqişə yarada bilər.

**Beynəlxalq sülh və təhlükəsizliyə töhvə verməklə,TSİ-ı ölkənin müdafiəsini təmin edir**. Effektsiz və hesabatsız təhlükəsizlik sektoru başqa dövlətlərə də təhlükə yaradır, bu ya potensial cinayətgar və ya düşmən siyasi qüvvələrə qucaq açmaqla və ya zorakı münaqişələr girməklə baş verir.

## TSİ-nın başqa təhlükəsizlik islahatlarından fərqi nədir?

Təhlükəsizlik təminatında effektivlik və hesabatlılıq TSİ-ı üçün bir-birindən ayrılmaz məqsədlərdir və nəticədə ortaya müəyyən özəlliklər çıxır ki, onlar TSİ-nı başqa növ təhlükəsizlik islahatlarından fərqli edir. Məsələn, müdafiə və ya təhlükəsizlik yardımı çərçivəsində texniki effektivliyi yaxşılaşdırmaq üçün təhlükəsizlik qüvvələrinin təlimi və avadanlıqla təmini buna nümunə ola bilər.

**TSİ-ı yaxşı idarəçilik haqqındadır.** Təhlükəsizlik təşkilatlarının necə işləməsinə təsir edən hər hansı dəyişikliklər edildikdə, TSİ-ı çox zaman düzgün başa düşülmür,lakin TSİ-ı başqa təhlükəsizlik islahatlarından fərqlidir, çünki o həm effektivliyin və həm də hesabatlılığın yaxşılaşdırılmasına yönəlmişdir. Başqa növ islahatlar ancaq təhlükəsizlik təsisatlarının modernizasiyasına və ya effektivliyinə yönələ bilər,lakin bu cür islahatlar TSİ-a aid olmur, o zamana qədər ki,onlar demokrtaik mülki nəzarət çərçivəsində, qanun aliliyi və insan hüquqlarına hörmət çərçivəsində hesabatlılığı təmin edir.

**TSİ-ı** həm dövlət və həm də insan təhlükəsizliyi haqq**ındadır.** Bu fərdlərin və onların icmalarının müxtəlif təhlükəsizlik tələblərinə malik olduqlarının tanınması və dövlət təhlükəsizlik təminatçılarının bu tələbləri qarşılama imkanlarının yaxşılaşdırması deməkdir. Vətəndaşların və icmaların təhlükəsizliyinin yaxşılaşdırılması həm də o deməkdir ki, dövlətin özünün təhlükəsizliyi təhlükəsizlik xidmətləri tərəfindən qorunur və onlar ölkənin müdafiəsi və ictimai asayişin qorunması istiqamətində özlərinin legitim

missiyalarını effektiv şəkildə yerinə yetirirlər. Dövlət təhlükəsizliyini insan təhlükəsizliyinə qarşı qoyan,və ya əhalinin bir hissəsinin təhlükəsizliyi hesabına başqa hissəsinə təhlükəsizlik təmin edən təhlükəsizlik sektoruna edilən dəyişikliklər təhlükəsizliyə xidmət etmir və TSİ-ı tərifi ilə uzlaşmır.

**TSİ –ı yerli və ölkə səviyyəsində sahiblənir**. TSİ –ı o zaman uğur qazanar ki, o, dövlət və insan təhlükəsizliyinə təsir edən yerli və ölkə səviyyəli subyektlərin məhsulu olsun. Ölkə/yerli sahiblənmə ölkə hökumətlərinə və həm də təhlükəsizliyi risk altında qalan vətəndaşlara isnad edir. Bu o deməkdir ki, ölkə/yerli subyektlər islahat prosesinin önündə getməlidir,lakin bu həm də o deməkdir ki,islahatlar iştirakçılığı, hamının təmsilçiliyini təmin edən və fərdlərin və cəmiyyətlərin fərqli təhlükəsizlik və ədalət tələblərinə hörmətlə yanaşan tərzdə aparılmalıdır. TSİ-a kənar dəstəyin olması zəruridir,lakin yuxarıdan və ya kənardan qəbul etdirilən islahatlar legitimliyini itirir və yerli təhlükəsizlik şəraitini və ya əhalinin tələblərini əks etdirmir. Bu səbəblərə görə,ölkə/yerli sahiblənmə TSİ-nın köklü prinsiplərindən sayılır.

**TSİ-ı bütövlük daşıyır.** TSİ-ı, təhlükəsizlik sektorunun bütün hissələrinin, o cümlədən, dövlət və qeyri –dövlət subyektlərinin bir yerdə işləməsinin təhlükəsizliyin təmin edilməsindən necə asılı olduğu ideyasına əsaslanır: məsələn,əgər ordunun,polisin və kommersiya məqsədli təhlükəsizlik şirkətləri kimi təhlükəsizlik təminatçılarının rolları və məsuliyyətləri aydın şəkildə müəyyən edilməzsə, təhlükəsizliyin təmin edilməsində təhlükəli uçurumlar və örtüşmələr baş verər; parlament nəzarətinin effektivliyi təhlükəsizlik siyasətinə təsir edər; nazirliklər kimi idarəetmə orqanlarının effektivliyi təhlükəsizlik qüvvələrinin iş qabiliyyətinə təsir edər və s. Təhlükəsizlik təminatının bir hissəsini və ya nəzarəti effektivlik hesabına yaxşılaşdıran fəaliyyətlər və ya başqa sahələrdə hesabatlılıq hesabına yaxşılaşdırılan fəaliyyətlər TSİ-nın tərifi ilə uyğun gəlmir,çünki onlar həm dövlət və həm də insan təhlükəsizliyini təhlükə altında qoya bilər.

**TSİ-ı uzun müddətli işdir**. Təhlükəsizlik sektorunun işində dəyişikliklər edilməsi uzun müddətli işdir,çünki bu proses dəyişən gözləntilərdən, adət və normalardan və həmçinin,təsisati qaydalar və peşəkar praktikalardan ibarətdir. Təhlükəsizlik sektoru idarəçiliyində müəyyən təkmilləşmələri qısa müddət ərzində etmək olar,lakin yaxşı təhlükəsizlik sektoru idarəçiliyinə nail olmaq illər və aylar yox,onilliklər və ya nəsillər tələb edir. Yaxşı TSİd-nin saxlanması, dövlət və insan təhlükəsizliyinə yeni problemlər yarandıqca həm daxildən və həm də kənardan daimi davam edən uyğunlaşdırmalar tələb edir.

## Hansı cür vəziyyətlər TSİ-ı labüd edir?

**Yaxşı təhlükəsizlik sektoru idarəçiliyi daimi dəyişiklik etmə məsələsidir və hər bir dövlət özünün təhlükəsizlik sektoru idarəçiliyinin elementlərini yaxşılaşdırmaq üçün addımlar atmaq iqtidarındadır.** Heç bir dövlət təhlükəsizlik sektoru yaxşı təhlükəsizlik sektoru idarəçiliyinin bütün prinsiplərini mükəmməl olaraq əks etdirmir, çünki təhlükəsizlik mühiti dəyişir və dəyişikliklər və uyğunlaşdırmalar da zərurətdir. Bu səbəbdən,TSİ –ı aparmaq tələbi rəngarəng növlü siyasi şəraitlərdən və ya texniki islahatlardan doğa bilər.

TSİ-ı labüd edən tipik vəziyyətlər aşağıdakıları əhatə edir:

- *Siyasi sistemə edilən islahatlar*. Demokratik keçid dövrü keçən ölkələrdə,yeni yaranan demokratiyanı gücləndirmək üçün TSİ-na zərurət duyulur.
- *Keçid dövrü ədliyyə prosesləri*. Təhlükəsizlik sektorunun əhaliyə qarşı zorakılıq irsi olduğu yerlərdə,keçid dövrü ədliyyə təşəbbüsləri TSİ-ı tələb edə bilər.
- *Sülh prosesləri.* Əhalinin bütün təbəqəsi üçün bərabər əsasda təhlükəsizlik təminatı verən təhlükəsizlik sektorunun yaradılması zorakı münaqişənin qarşısını ala bilər və bu səbəbdən TSİ-ı çox zaman sülh müqaviləsinə salınan tələblərdən biri olur.
- *Tərksilah,ordudan tərxis edilmə və cəmiyyətə yenidən inteqrasiya proqramları(DDR)*. DDR, təhlükəsizlik sektorunun sayına və təbiətinə birbaşa təsir etmə qabiliyyətinə malikdir və bu səbəbdən DDR və TSİ-nın birlikdə hərəkəti ən yaxşı haldır.
- *Milli inkişaf planları və yoxsulluğu azaltma strategiyaları*. TSİ-ı inkişaf üçün zəruri olan daha stabil və daha demokratik siyasi mühitə töhvə verdiyindən,o,çox zaman ölkənin inkişafına yönələn planlaşdırma və strategiyalara daxil edilir.
- *Dövlət maliyyə idarəetmə islahatları*. TSİ-ı dövlət maliyyə idarəetmə islahatlarının tərkib hissəsidir, çünki o təhlükəsizlik sektorunun dövlət vəsaitlərini məhsuldar şəkildə istifadə etməsinə şərait yaradır.
- *Qanun aliliyi islahatları*.Ədalət birbaşa olaraq təhlükəsizliklə bağlıdır, ona görə də TSİ-ı ədliyyə sisteminin effektivliyinin və hesabat-

lılığının yaxşılaşdırılması üçün uyğundur.

- *Milli təhlükəsizlik siyasəti.* Dövlətlər özlərinin milli təhlükəsizlik siyasətini və strategiyasını gözdən keçirən zaman və ya yenisini hazırlayan zaman, TSİ –ı bu siyasəti həyata keçirməyə cəlb olunur.

## Təhlükəsizlik sektoru

Təhlükəsizlik sektoru, təhlükəsizlyin ölkə və yerli səviyyələrdə təmin edilməsi,onun idarəetməsi və onun üzərində nəzarət funksiyalarına məsul olan bütün strukturlar, təsisatlar və təhlükəsizlik qulluqçularından ibarətdir, o cümlədən:.

- Təhlükəsizlik təminatçıları, buraya silahlı qüvvələr, polis,sərhəd xidməti,kəşfiyyat xidmətləri, cəza müəsisələri, kommersiya və qeyri dövlət təhlükəsizlik aktyorları daxildir;
- Təhlükəsizlik idarəetmə və nəzarət orqanları, buraya yüksək standardlı dövlət təhlükəsizlik təminatı daşıyan hökümət nazirlikləri,parlament,xüsusi statuslu nəzarət təsisatları,ədliyyə sisteminin bir hissəsi və mülki cəmiyyət aktyorları, o cümlədən,qadın təşkilatları və media daxildir.

Təhlükəsizlik sektorunun müxtəlif tərifləri vardır, lakin TSİ-ı bu sektorun geniş anlamına əsaslanlır və o bütün təhlükəsizlik təminatını,idarəetmə və nəzarət orqanlarını ,o cümlədən,həm hərbi və həm də qeyri-hərbi təhlükəsizlik təsisatlarını və dövlət və qeyri-dövlət subyektlərini özündə cəmləşdirir.

Təhlükəsizlik sektoru üzrə daha geniş məlumat almaq üçün, “Təhlükəsizlik Sektoru” üzrə TSİ Qeydlərinə isnad edin.

## Ad hansı fərqliliyi gətirir?

**Fərqli aktyorlar,** bəzən TSİ-ı gündəminin fərqli aspektlərini vurğulamaq məqsədilə və ya “islahat” sözünün siyasi baxımdan həssas olduğunu düşünərək**, TSİ-ı izah etmək üçün fərqli terminlərdən istifadə edirlər**: məsələn,*təhlükəsizlik sistemi islahatı* bir zamanlar bir-birindən ayrı hesab edilən təhlükəsizlik aktyorları arasındakı qarşılıqlı bağlılığı vurğulayır; *təhlükəsizlik sistemi transformasyası* keçmiş praktikadan tamamilə əl çəkilməsini önə çəkir; ədalət və təhlükəsizlik sektoru islahatı ədalət və təhlükəsizliyə bir yerdə baxılması zərurətini bizə xatırladır; asayiş,təhlükəsizlik və ədalət sisteminə çıxış insan mərkəzli yanaşmanı vurğulayır; *təhlükəsizlik sektoru yenidənqurulması* müharibədən sonra qurulan yeni təhlükəsizlik təsisatlarının üzləşdiyi problemlərin miqyasını göstərir; və *təhlükəsizlik sektoru inkişafı* dövlət və insan təhlükəsizliyinin inkişaf üçün mühüm olduğunu önə çəkmək üçün istifadə oluna bilər və ya sadəcə olaraq islahat sözünü işlətməmək üçün istifadə oluna bilər.

**Bu terminlər, təhlükəsizlik sektoru islahatının eyni gündəmi üçün fərqli adlar daşıyır və eyni zamanda yaxşı TSİd-i prinsiplərini paylaşır**lar,yəni,demokratik mülki nəzarət, qanun aliliyi və insan hüquqlarına hörmət çərçivəsində təhlükəsizlik təminatının, idarəetməsinin və onun üzərində nəzarətin hesabatlılığını və effektivliyini yaxşılaşdırırlar. **Bu məqsədləri əks etdirməyən islahatlara,onların başlıqlarından asılı olmayaraq TSİ-ı kimi baxıla bilməz.**

### TSİ və gendər bərabərliyi

TSİ-ı həm dövlət və həm də insan təhlükəsizliyini yaxşılaşdırmaq haqqındadır və fərqli insanlarin öz kimliklərinə görə fərqli təhlükəsizlik ehtiyacları daşıdıqlarını qəbul etmək deməkdir. Gendər, kimliyin bir hissəsi olmaqla qadın və kişinin cəmiyyətdə oynadığı fərqli sosial və mədəni rollardan asılıdır və bu rolların fərqliliyi TSİ-ı üçün önəmlidir,çünki o hər bir fərdin təhlükəsizliyinə təsir edir: məsələn, qlobal olaraq,gənclərin həndəsi silsilə ilə odlu silah qurbanı olması ehtimalı böyükdür və eyni zamanda qadınların evdə fiziki zorakılığa məruz qalması ehtimalı böyükdür;və qızlar daha çox insan alverinin qurbanı olurlar; eyni zamanda oğlan uşaqları quldur dəstələrinin zorakılığına məruz qalırlar.  Təhlükəsizlik ehtiyacları üçün bu cür fərqliliklərin tanınması təhlükəsizliyin təmin edilməsinin effektivliyini artırır, bu həm də hesabatlılıq və təhlükəsizliyə yerli sahiblənməni də yaxşılaşdırır. Məsələn,qadınları işə almaqla təhlükəsizlik sektoru xidmət etdiyi əhalini daha da geniş təbəqədə təmsil edir, qadın və kişilərlə təhlükəsizlik məsələlərində bərabər şəkildə məsləhətləşmələr aparmaqla və TSİ-ı yerli sosial və mədəni şəraitə uyğunlaşdırmaqla  yerli sahiblənməni gücləndirir: və qadın müdafiə qrupları ilə aparılan məsləhətləşmə və təhlükəsizlik sektoru üzrərində nəzarət aparmaq üçün qadın və kişilərin balanslı iştirakı, təhlükəsizlik siyasəti və işi haqqında yeni perspektivlər ortaya qoyar. Təhlükəsizlik sektorunda gendər bərabərliyinə hörmətlə yanaşma yaxşı TSİd-nin tərkib hissəsidir və ona görə də TSİ-nın vacib aspektidir.

Daha geniş məlumat almaq üçün, “Gendər Bərabərliyi və Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyi”  və “Gendər Bərabərliyi və Təhlükəsizlik Sektoru İslahatı”

üzrə TSİ-ı Köməkçi materiallarına baxın.

## TSİ-ı necə meydana gəlmişdir?

Təhlükəsizlik sektoru təminatının demokratik mülki nəzarət, qanun aliliyi və insan hüquqları çərçivəsində effektiv və hesabatlı olması ideyasına heç bir yenilik edilməmişdir,lakin TSİ-ı ilk dəfə Soyuq Müharibə bitəndən sonra fərqli siyasi gündəm kimi ortaya çıxmışdır. 1990-cı illərdə Cənubi Afrika,İndoneziya və Şərqi Avropa ölkələri Təhlükəsizlik Sektoru İdarəçiliyini yaxşılaşdırmaq üçün geniş islahatlardan ibarət mühüm nümunələr göstərmişlər.

Eyni zamanda artan vətəndaş müharibələri halları və onların nəticəsində yaranan yoxsulluq və təhlükəsizlik problemləri bu sahədə çalışan inkişaf və təhlükəsizlik mütəxəssislərini, bu problemlərə yaxşı idarəçilik və insan təhlükəsizliyi yanaşmasından baxmağa sövq etdi. Bu təcrübələrdən çıxış edərək belə nəticəyə gəlindi ki, təhlükəsizlik sektoru da başqa dövlət sektorları kimi yaxşı idarəçiliyin eyni standardlarına məruz qalmalıdır. Bu cür ortaya çıxan konsensusun əsasında, qarşılıqlı inkişaf agentlikləri və çoxtərəfli təşkilatlar TSİ-ı məsələsini öz siyasi proqramlarına daxil etdilər və getdikcə,TSİ-ı təhlükəsizlik,inkişaf,sülh quruculuğu və demokratiyanın təşviqi üzrə beynəlxalq yanaşmaların sütununa çevrildi.

TSİ-ı və yaxşı TSİd-i inkişafı üzrə daha geniş məlumat almaq üçün,bu TSİ-ı Köməkçi materiallarınn sonunda verilmiş vəsaitlərin siyahısına baxın.

## Əlavə vəsaitlər

*TSİ-nın daha geniş və sistemli icmalı üçün, islahat problemlərini mövzular və bölmələr üzrə* əhatə etməklə *və münaqişə sonrası şəraitlərə* fokuslanmaqla:

------

BMT TSİ-ı İşçi Qrupu

**Təhlükəsizlik Sektoru İslahatı İnteqrasiyalı Texniki Rəhbər Qeydləri**

(BMT,2012)

**-----------**

OECD İnkişaf Yarım Komitəsi

**7-ci Bölmə: TSİ-nın Sektorlar üzrə Yerinə Yetirilməsi**

Təhlükəsizlik Sektoru İslahatı üzrə OECD DAC Kitabçası: Təhlükəsizlik və Ədalətin Dəstəklənməsi(Paris: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı-OECD, 2007, səh. 112-235)

--------

DCAF-İSSAT

**TSİ-ı Qısa şəkildə: Təhlükəsizlik Sektoru İslahatı üzrə** İlkin**Təlim Kitabçası**

(Genevrə,DCAF-İSSAT,2012)

--------

DCAF-İSSAT

**Təhlükəsizlik Sektoru İslahatına Giriş**

DCAF-İSSAT Praktikası saytında olan elektronik öyrənmə kursu:

http://issat.dcaf.ch

*TSİ-na yerli/milli səviyyədə sahiblənmənin vacibliyi ilə əlaqədar əlavə məlumat üçün:*

-----

BMT TSİ İşçi Qrupu

**Təhlükəsizlik Sektoru İslahatına Ölkənin Sahiblənməsi**

Təhlükəsizlik Sektoru İslahatı İnteqrasiyalı Texniki Rəhbər Qeydləri(BMT,2012,səh,13-34)

-----

Lauri Natan (red.)

**Nə Sahiblənmə,nə Öhdəlik: Təhlükəsizlik Sektoru İslahatında yerli Sahiblənməyə Rəhbər vəsait**

(Birminhem, Birminhem Universiteti, 2007)

——

Tim Donais(red.)

**Yerli Sahiblənmə və Təhlükəsizlik Sektoru İslahatı**

(Munster:LİT Verlaq,2008)

*Gender və TSİ-ı ilə bağlı rəhbər vəsaitlə bağlı:*

----

BMT TSİ-ı İşçi Qrupu

**Gender-Cavablayıcı Təhlükəsizlik Sektoru İslahatı**

Təhlükəsizlik Sektoru İslahatı İnteqrasiyalı Texniki Rəhbər Qeydləri(BMT,2012,səh,35-60)

**----**

Meqan Bastik və Kristin Valasek(red.)

**Gendər və Təhlükəsizlik Sektoru İslahatı Vəsaiti**

(Genevrə,DCAF,OSCE/ODİHR. UN-İNSTRAÜ,2008)

----

OECD İnkişafa Yardım Komitəsi

**9-cu** Bölmə: Gendər Məlumatlılığı və Bərabərliyin Birləşdirilməsi

Təhlükəsizlik Sektoru İslahatı üzrə OECD DAC Kitabçası: Təhlükəsizlik və Ədalətin Dəstəklənməsi(Paris: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı-OECD, 2009)

*Təhlükəsizlik Sektoru idarəçiliyi və islahatı konsepsiyasının inkişafı ilə əlaqədar daha geniş məlumatlar üçün:*

-----

Heyner Hanqqi

**Təhlükəsizlik Sektoru İslahatı- Transformasiyada olan Konsepsiyalar və Kontekstlər:** Təhlükəsizlik Sektoru İslahatı oxucusu(Pasiq:İNCİTEGov,2011, səh 11-40).

----

Hans Born və Albrext Şnabel

**Problemli Ölkələrdə Təhlükəsizlik Sektoru İslahatı**

(Munster,LİT Verlaq,2009)

------

Mark Sedra

**Təhlükəsizlik Sektoru İslahatının gələcəyi**

(Vaterlu: Beynəlxalq İdarəçilik İnnovasiyası Mərkəzi,2010).

## Əlavə DCAF TSİ-ı Vəsaitləri

**----**

DCAF TSİ-ı və yaxşı idarəçilyin bütün aspektləri üzrə geniş tərkibdə vəsaitlər, kitabçalar və rəhbər vəsaitlər dərc edir və onlar DCAF-ın saytından əldə edilə bilər.

Çox sayda vəsaitlər ingilis dilindən başqa digər dillərdə də vardır.

**-------**

DCAF-İSSAT Praktikası öyrənmə saytında çox sayda onlayn vəsaitlər TSİ-ı praktikləri üçün sərbəst əldə edilə bilər: http://issat.dcaf.ch

**-------**

**Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə Cenevrə Mərkəzi (DCAF)** beynəlxalq fond olaraq müxtəlif ölkələrə təhlükəsizlik sektorunda yaxşı idarəçiliyi və islahatları təşviq edir.

DCAF təhlükəsizlik sektorunda demokrtaik idarəçiliyi təmin etmək üçün normalar və standardlar hazırlayır

və təşviq edir, dərin siyasi araşdırmalar aparır, ən yaxşı praktikaları və tövsiyələri aydınlaşdırır, ölkədaxili səviyyələrdə məsləhətlər verir və praktiki kömək proqramları irəli sürür.

**DCAF aşağıdakı** şəxslərə **təşəkkür etmək istəyir**

Petra Qurtnerə dizayna görə

Çerri Ekinsə İngiliscə redaktə etdiyinə görə

Linda Çinafa Fransız dilində redaktə etdiyinə görə

Linda Maçata Fransız dilinə tərcümə etdiyinə görə,və

Fernando Kolaçoya kompyuter proqramı hazırladığına görə

**Seriyaların redaktoru**

Fairli Çappuis

**Bu buraxılışa isnad etmək üçün**

DCAF-Təhlükəsizlik Sektoru İdarəçiliyi üzrə Cenevrə Mərkəzi. Təhlükəsizlik Sektoru İslahatı, TSİ-ı Köməkçi materialları seriyaları. Cenevrə,DCAF,2015.

DCAF. TSİ Köməkçi materiallarını bu saytdan əldə etmək olar www.dcaf.ch . İstifadəçilər DCAF-a isnad edərək bu materialların surətini çıxara bilər və yaya bilər.  Kommersiya məqsədi üçün istifadə edilə bilməz.

DCAF-ın TSİ Köməkçi materiallarını proqramını yükləyə bilərsiniz

Yaxşı Təhlükəsizlik Sektoru İdarəçiliyinin əsasları və islahatlar üzrə geniş vəsaitlər, o cümlədən,

TSİ Köməkçi materialları:  Təhlükəsizlik Sektoru İdarəçiliyi və islahatları üzrə qısa giriş

TSİ Araşdırmaları: Təhlükəsizlik Sektoru İdarəçiliyindəki son cərəyanlarla bağlı islahat mütəxəssisləri tərəfindən yazılan, baxış keçirilən və redaktə edilən yüksək səviyyəli analizlər.

DCAF Vəsaitləri: islahat praktikləri üçün bizim  ən yaxşı praktiki rəhbər vəsaitlərimizin seçilməsi, o cümlədən,fərqli dillərdə kitabçalar, vəsaitlər və rəhbər qeydləri.

Kompyuter proqramı aşağıdakıları təklif edir:

- Vəsaitlərin hamısı bir dəfəmlik yüklənir. Ondan sonra onların üzərində sərbəst işləmək olur.
- Aydın mətn üçün Iki cür oxu rejimi seçimi və daha yaxşı zoom
- Məlumatlar və onların saxlanması üçün yüngülləşmiş formada olan optimal İOS və tez işləyən Android formatları
- Apple App store və ya Google Play store vasitəsilə sərbəst yükləmək olur.